# ABŞ informasiya siyasətində korrektələr edir

## "Amerikanın səsi" və "Azadlıq radiosu" qərəzçiliyə görə ittiham olunurlar

"Amerikanın "Azadlıq radiosu" və "Amerikanın səsi"ni bağlama qərarı dünya miqyasında informasiya və media mühitində ciddi dəyişikliklərə yol açacaq. ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin rəhbəri İlon Mask ABŞ Milli kəşfiyyatının keçmiş direktoru Rik Qrenellinin bu kanalların bağlanması təklifini dəstəkləyib".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, Qrenelli "Amerikanın səsi" və "Azadlıq radiosu"nu qərəzçilikdə ittiham edərək bu media platformalarının radikal solçuların meydanına çevrildiyini diqqətə çəkib. Qrenelli mühafizəkardır və Trampın tərəfdarıdır, antiimmiqrasiya, antiqlobalist və antiliberal görüşləri ilə tanınır. O, diplomatik vəzifələrdə və ictimai bəyanatlarda liberal hökumətləri, bürokratiyanı və beynəlxalq qurumları fəal şəkildə tənqid edərək, daha sərt xarici siyasətdən yana çıxış edir. Bu günlərdə dünya mediasının gündəmində müzakirə olunan USAID-lə bağlı ən sərt ifadəni isə dövlət rəsmisi kimi İlon Mask işlədib: "Bu, cinayətkar təşkilatdır və ölmək vaxtıdır". Bu açıqlamanın ardınca Donald Tramp agentliyin Vaşinqtondakı mənzil-qərargahının bağlanmasına razılıq verib.

Deputat xatırladıb ki, İlon Mask bir müddət əvvəl dövləti "Associated Press" və "Politico"nu maliyyələşdirməni, "talançı xərcləmələri" dayandırmağa çağırıb. Bunun ardınca "Politico"nun maliyyələşməsi planı dayandırılıb.

K.Bayramov qeyd edib ki, bu qərarın əsas səbəblərindən biri ABŞ-nin informasiya siyasətini yeni bir müstəviyə daşıma istəyidir: "Görünür, ABŞ digər ölkələrə olan təsirini birbaşa diplomatik kanallar və iqtisadi əlaqələr vasitəsilə həyata keçirmək istəyir. İndi vəziyyət dəyişib. Cəmiyyətlərin informasiya əldə etmək imkanları da çoxalıb. Xüsusən sosial şəbəkə bu istiqamətdə daha fəaldır. Görünür, İlon Mask və Rik Qrenelli maliyyə baxımından onların bağlanmasını istəyirlər. Digər tərəfdən, zaman keçdikcə bəzən informasiya vasitələrinin fəaliyyəti dövlətlərarası münasibətlərə də xələl gətirir. Həmin ideyanın yaranmasına bu məsələnin də səbəb olması istisna edilmir".

Deputat vurğulayıb ki, dünyada alternativ informasiya əldə etmək imkanları genişləndikcə xarici təsirləri azaltmaq, həm də dövlətlərin təhlükəsizlik məsələsinə çevrilir. Ölkələr təhlükəsizliyi təhdid edən mənbələri neytrallaşdırmağa çalışırlar. Belə çıxır ki, həmin radiolar qlobal təhlükəsizlik baxımından ABŞ-nin maraqlarına artıq uyğun sayılmır. Ona görə də Ağ Evdə sözü keçən İlon Mask maliyyələşdirmə məsələsini qabartmaqla onların bağlanmasına diqqəti çəkib.

K.Bayramov əlavə edib ki, bu qərar Azərbaycanın daxili media mühitində də təkmilləşməyə səbəb ola bilər: "Hesab edirəm ki, bunun nəticəsində ölkənin vətəndaşlarına təqdim edilən informasiya daha mütəşəkkil və nizamlı ola bilər. Yeri gəlmişkən, bu addım dünyanın bir çox ölkəsində dəstəklənir. Həmçinin dünya siyasətçilərinin fikirlərinə görə, bu gün istənilən məlumat beş dəqiqə ərzində dünyaya yayılır və insanların "Azadlıq radiosu"nun xəbərlərinə ehtiyacı qalmır. Ümumiyyətlə, "Amerikanın səsi" və "Azadlıq" radioları çoxdandır ki, aparıcı kanallar hesab olunmurlar. Odur ki, bu informasiya vasitələri ya tarixə qovuşacaq, ya da öz xəbər siyasətlərinə yenidən baxmalı olacaqlar".

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 12 fevral (№ 31).- S.6.